# Ulduz Şokolad Fabriki “WORLD FOOD- 2017” Dünya Qida Sərgisində ölkəmizi yeni məhsul çeşidləri ilə təmsil edir

Ulduz Şokolad Fabriki Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində təşkil olunmuş “WORLD FOOD 2017” Dünya Qida Sərgisində iştirak edir.

AFN xəbər verir ki, sentyabrın 14-nə qədər davam edəcək “WORLD FOOD 2017” Dünya Qida Sərgisinə ümumilikdə dünyanın 64 ölkəsindən 1500 şirkət qatılıb.

Fabrikin direktoru Mahir Balasıyev bildirib ki, fabrikin təqdim etdiyi beynəlxalq standartlara cavab verən 80-dən çox yüksək keyfiyyətli və rəqabətqabiliyyətli yeni çeşidli məhsulları sərgi iştirakçılarının böyük marağına səbəb olub.

Qeyd edək ki, 2001-ci ildən fəaliyyət göstərən “Ulduz” şokolad fabriki yerli bazarla yanaşı dünyanın 20-dən artıq ölkəsinə şokolad məhsulları ixrac edir.

Xatırladaq ki, fabrik bundan əvvəl “Made in Azerbaijan” brendi ilə Asiyanın ən iri sərgisi “THAİFEX-WORLD of ASİA”da iştirak etmişdi.






## Keçidlər

1. https://afn.az/iqtisadiyyat/62366-ulduz-shokolad-fabriki-daha-bir-beynelxalq-sergide-azerbaycani-temsil-edir.html

2. http://marja.az/news/12883